INTERNATIONAL ACADEMY OF SCIENCE AZERBAIJAN SECTION



5 YEARS

BAKU - 2007

ELMİ İNKİŞAF ÜZRƏ BEYNƏLXALQ ŞURA

BEYNƏLXALQ ELMLƏR AKADEMİYASI

AZƏRBAYCAN BÖLMƏSİ: 5 il

INTERNATIONAL COUNCIL FOR SCIENTIFIC DEVELOPMENT

INTERNATIONAL ACADEMY OF SCIENCE

AZERBAIJAN SECTION: 5 YEARS

BAKU - 2007

EDITOR-IN-CHIEF
BAŞ REDAKTOR

Walter Kofler - Academician**,** Dr., Prof., President of International Academy of Science H&E (Innsbruck, Austria).
Valter Kofler – Akademik, Dr., Prof., Beynəlxalq Elmlər Akademiyasının Prezidenti (İnsbruk, Avstriya).

HƏMSƏDR
CO-CHAIRMAN

Elchin Khalilov - Academician**,** Dr., Prof., Vice-President of International Academy of Science H&E. (Innsbruck, Austria), President of Azerbaijan Section of IAS.
Elçin Xəlilov – BEA Akademiki, Dr., Prof., Beynəlxalq Elmlər Akademiyasının Vitse-Prezidenti, BEA-nın Azərbaycan Bölməsinin Prezidenti.

Beynəlxalq Elmlər Akademiyası. Azərbaycan Bölməsi: 5 il. Baki, Elm Dünyası, 2007.
International Academy of Science. Azerbaijan Section: 5 years. Baku, Elm Dunyasi, 2007.

Kitab fotoalbom şəklində sap olunub. Kitabda Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan Bölməsinin 5 il ərzində olan yaradıcılıq fəaliyyəti əks olunmuşdur.

The book is issued in a format of a photo album. Activity of the Azerbaijan Section of the International Academy of Science during 5 years is shown in the book.

© Beynəlxalq Elmlər Akademiyası. Azərbaycan Bölməsi.

© International Academy of Science. Azerbaijan Section.

Sponsor: Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnoloqiyaları Nazirliyi.

Sponsor is the Ministry of Communication and Informational technologies of Azerbaijan.

ISBN

ELM DÜNYASI

Bakı - 2007

BEYNƏLXALQ ELMLƏR AKADEMİYASININ FƏXRİ AKADEMİKLƏRİ

HONORARY ACADEMICIANS OF INTERNATIONAL ACADEMY OF SCIENCE

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ ƏLİYEV İ.H.

PRESIDENT OF AZERBAIJAN
REPUBLIC ALIYEV I.H.

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ ƏLİYEV H.Ə.
1993- 2003

PRESIDENT OF AZERBAIJAN
REPUBLIC ALIYEV H.A.,
1993-2003

QIZIL DÖŞ NİŞANI LAUREATLARI – BEYNƏLXALQ ELMLƏR AKADEMİYASININ YÜKSƏK MÜKAFATI

LAUREATES OF GOLDEN PIN – THE HIGHEST AWARD OF INTERNATIONAL ACADEMY OF SCIENCE



Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki

2002-ci il mayın 11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Beynəlxalq Elmlər Akademiyasının Elmi İnkişaf üzrə Beynəlxalq Şurası Azərbaycan bölməsinin Bakıda, "Hyatt Recensi" otelində keçirilən təntənəli iclasında BEA-nın fəxri akademiki adına layiq görülmüşdür. İlk dəfə Nobel mükafatı laureatı Laynus Polinq tərəfindən 1980-ci ildə təşkil edilmiş Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan bölməsi 2001-ci ilin noyabrında yaradılmışdır. Akademik Cəlal Əliyevin fəxri prezidenti olduğu bölmə ötən qısa müddətdə akademiyanın bütün elmi, kütləvi tədbirlərində yaxından iştirak edərək bu nüfuzlu beynəlxalq elm təşkilatının aparıcı yerli strukturlarından birinə çevrilmişdir.

Təntənəli iclası giriş sözü ilə açan BEA-nın akademiki Elçin Xəlilov iclasda iştirak tdən qonaqların BEA-nın prezidenti Valter Kofleri, akademik Karl Hexti, BEA-nın Azərbaycan bölməsinin baş katıbı Yelena Savoleyi, Azərbaycanın görkəmli elm adamlarını salamlayaraq bölmənin altı aylıq fəaliyyətindən danişdı. Elçin XəlİlOv bu iclasın Azərbaycan Prezidenti Heydər Əliyevin ad gününə təsadüf etməsindən məmnunluğunu bildirdi və iclas iştirakçıları adından Azərbaycan dövlətinin başçısını təbrik etdi. Söz alan BEA-nın prezidenti Valter Kofler BEA Rəyasət Heyətinin qərarı ilə ölkəmizdə elmin və təhsilin inkişafına göstərdiyi diqqətə, yaradıcılıq səylərinə, beynəlxalq əməkdaşlığa, regionda sabitliyə, insanların xoşbəxt gələcəyi və sağlamlığı naminə apardığı böyük işlərə görə Azərbayean Prezidenti cənab Heydər Əliyevin Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki seçilməsi və qızıl döş nişanı ilə təltif edilməsi xəbərini iclas iştirakçılarına çatdırdı. O, bu münasibətlə Prezident Heydər Əliyevə ünvanlanmış məktubun mətnini oxudu.


INTERNATIONAL COUNCIL FOR SCIENTIFIC DEVELOPMENT
INTERNATIONAL ACADEMY OF SCIENCE

DIPLOMA № 01Az-02

Heydar Alirza ogly Aliyev

is elected Honorary Member (academician) of the INTERNATIONAL ACADEMY OF SCIENCE

General Secretary — PRESIDENT of the ICSD/IAS

W.Kofler

Confirmed by the decision of the Presidium of the International Academy of Science of May 05 / 2002, Innsbruck, Austria.


INTERNATIONAL COUNCIL FOR SCIENTIFIC DEVELOPMENT

INTERNATIONAL ACADEMY OF SCIENCE

has elected with regards to the principles of WHO Strategy Health 21 for National Environmental Health Action Plan

for his outstanding scientific and applied contributions for environment and health in the Central Asian Regions

Heydar Alirza ogly Aliyev

to receive the Pavlov Honour Pin in Gold

Austria, Innsbruck, 2002

Honorary President — President — General Secretary — General Advisor

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

Beynəlxalq Səhiyyə və Ekologiya Elmlər Akademiyasının prezidenti
cənab Valter Koflerə

Hörmətli Valter Kofler,

Azərbaycan Respublikasının Prezidenti seçilməyim münasibətilə səmimi təbrikinizə və xoş arzularınıza görə Sizə və başçılıq etdiyiniz akademiyanın bütün üzvlərinə təşəkkür edirəm.

Atam Prezident Heydər Əliyevə yüksək münasibətinizdən, dərin hörmət və ehtiramınızdan böyük məmnunluq duyuram.

Sizə möhkəm can sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Bakı şəhəri," 28 noyabr 2003-cü il
№ I/647

President of the Republic of Azerbaijan

To President of International Academy of Science, Health and Ecology Mr. Walter Kofler

Dear Mr. Kofler!

Thank you and all members of the Academy headed by you for your warm congratulations and kind wishes my electing the President of Azerbaijan Republic.

I am very delighted with your high attitude and deep respect to my father President Heydar Aliyev. I wish you robust health, happiness and success in your work.

Sincerely Yours, Ilham Aliyev

28 November, 2003
№ 1/647

BEYNƏLXALQ ELMLƏR AKADEMİYASININ AZƏRBAYCAN BÖLMƏSİ

AZERBAIJAN SECTION OF INTERNATIONAL ACADEMY OF SCIENCE

Beynəlxalq Elmlər Akademiyası Azərbaycan Bölməsi Rəyasət Heyətinin binası

Building of Presidium of the Azerbaijan Section of International Academy of Science

Beynəlxalq Elmlər Akademiyası Zəlzələlərin Proqnozlaşdırılması və Öyrənilməsi üzrə Elmi-Tədqiqat İnstitutunun binası

Building of Scientific Research Institute of Forecasting and Studing of Earthquakes of International Academy of Science

Xoll
Hall

Konfrans zalı
Conference Hall

Kiçik zal
Small Hall

Beynəlxalq Elmlər Akdemiyasının iştirakı ilə xüsusi nümayəndə tərkibində, Ümumdünya Gömrük Təşkilatının toplantısında Azərbaycan Prezidenti İ. Əliyevin BEA Prezidenti, prof. Valter Koflerlə görüşü zamanı, Bakı, 20 may, 2005-ci il.

During the meeting of President of IAS Prof. Walter Kofler with President of Azerbaijan I.Aliyev in oficial delegation on forum of World Customs Organization with participation of International Academy of Science, May 20, 2005, Baku

BEA Azərbaycan Bölməsinin Rəyasət Heyətinin iclası zamanı

During the meeting of President of Azerbaijan Section of IAS

ELMİ İNKİŞAF ÜZRƏ BEYNƏLXALQ ŞURA - BEYNƏLXALQ ELMLƏR AKADEMİYASI HAQQINDA MƏLUMAT

Beynəlxalq Elmlər Akademiyası (BEA) 1980-cı ildə iki dəfə Nobel mükafatı laureatı Laynus Karl Polinqin və bir çox görkəmli elm xadimlərinin təşəbbüsü ilə yaradılmışdır. L.Polinq ömrünün sonuna qədər BEA fəxri prezidenti olmuşdur.

BEA əsas məqsədi – bəşəriyyət qarşısında duran müasir qlobal problemlərin həllində müxtəlif ölkələrin alimlərinin gücünü birləşdirməkdən ibarətdir. Belə ümummilli problemlərə ekologiya, kosmosun və dünya okeanının mənimsənilməsi və s. aiddir. Bu problemlərdən ən önəmlisi tibbi-bioloji baxımdan insanların sağlamlığının qorunması, onların mənəvi və mədəni dəyərlərinin saxlanılmasıdır.

EİBŞ/BEA Parisdə (Fransa) və Münhendə (Almaniya) qeydiyyata alınmış qeyri-hökumət beynəlxalq elmi təşkilatdır. BEA-nın hazırkı mərkəzi mənzil-qərargahı və Rəyasət Heyəti Avstriyanın İnsbruq şəhərində yerləşir.



Laynus Karl Polinq

BEA-nın üzvlərinin ümumi metodologiyası təbiət və cəmiyyət hadisələrinin öyrənilməsində sistemli yanaşmanın tətbiqindən ibarətdir. BEA-nın üzvləri belə hesab edirlər ki, elmi biliklərin beynəlxalq xarakterinə görə, bəşəriyyətin inkişafı inqilab və zorakılıqla deyil, elmi biliklərin əsasında yaratmaq və birləşmək yolu ilə təbiət və cəmiyyət hadisələrinin sistemli qanunauyğunluqlarının təşkili əsasında olmalıdır.

BEA dünyanın görkəmli alimlərini və filosoflarını, siyasi və ictimai xadimlərini özündə birləşdirir. Onların arasında 120 nəfərdən çoxu Nobel mükafatı laureatı, 30 nəfəri isə sabiq və hazırda hakimiyyətdə olan nazirlərdir.

BEA-nın tərkibinə 80-dən çox milli elmlər akademiyası daxildir. 40-dan çox müxtəlif ölkələrin məşhur universitetləri və bir çox elmi-tədqiqat institutları Akademiyanın kollektiv üzvləridir. Akademiyanın bir çox milli bölmələri təşkil edilib vəfəalliyyət göstərir: alman, azərbaycan, braziliya, italiya, isveçrə, fransız, hind, yapon, şərqi-avropa, rus və s.1993-cü ildə Moskvada BEA Rusiya Bölməsi təsis edilmişdir. BEA Rusiya Bölməsinin yaradılmasında görkəmli alimlərdən N.N. Moiseyevin, V.İ Pokrovskinin, N.Q. Basovun, A.İ. Proxorovun, K.V. Sudakovun, N.P. Laverovun, F.İ. Komarovun və s. böyük rolu olmuşdur.

INFORMATION ABOUT THE INTERNATIONAL COUNCIL FOR SCIENTIFIC DEVELOPMENT – INTERNATIONAL ACADEMY OF SCIENCE

The International Academy of Science (IAS) was founded in 1980 by initiative of the twice winner of the Nobel Prize Linus Karl Pauling and many other well known scientists. Linus Karl Pauling was the Honorary President of IAS till the end of his life.

The main aim of IAS is joining the power of scientists from different countries in solving actual global problems of the humanity. These problems include ecological problems, appropriation of the space and oceans, etc. One of the most important problems from the medical-biological point of view is public health care, protection of moral and material heritage of the humanity.

The International Council for Scientific Development – International Academy of Science (ICSD/IAS) is non-governmental international scientific organization, registered in Paris (France) and Munich (Germany). At present, headquarters and Presidium of IAS are located in Innsbruck, Austria.

The general methodology of IAS members is application of systematic approaches in studying of natural and social phenomena. IAS members believe that according to the international character of scientific knowledge, development of the society will not be on the basis of revolution and force, it will be on the basis of scientific knowledge, organization of systematic rules of natural and social phenomena by means of joining.

IAS involves in its activities the outstanding scientists and philosophers, politicians and famous public figures of the world. More than 120 persons among them are winners of the Nobel Prize and 30 of them are former or acting governmental ministers.

IAS contains more than 80 national academies of sciences. Famous universities from more than 40 different countries and many scientific research institutes are collective members of the Academy. Many national sections of the Academy were founded and activated: German,Azerbaijan, brasilian, Italian, norwegian, Indian, Japanese, East European, Russian, etc.

In 1993 the Russian Section of IAS was established in Moscow. Many outstanding scientists like N.N. Moiseyev, V.I. Pokrovsky, N.Q.Basov, A.I.Prokhorov, K.V. Sudakov, N.P. Laverov, F.I. Komarov have plaid a great role in creation of the Russian Section of IAS.



Linus Karl Pauling
(1901-1994)

Elmi İnkişaf üzrə Beynəlxalq Şura-Beynəlxalq Elmlər Akademiyası (EİBŞ/BEA) Azərbaycan Bölməsinin təsis edilməsi iki dəfə Nobel mükafatı laureatı, BEA təşəbbüsçüsü və ilk fəxri prezidenti L.Polinqin anadan olmasının 100 illiyinə həsr olunmuşdur.

The establishing of the Azerbaijan Section of the International Council for Scientific Development – International Academy of Science was devoted to the 100th anniversary of the twice winner of the Nobel Prize, founder and first president of IAS Linus Karl Pauling.

ELMİ İNKİŞAF ÜZRƏ BEYNƏLXALQ ŞURA-BEYNƏLXALQ ELMLƏR AKADEMİYASININ (EİBŞ/BEA) TƏŞƏBBÜSÇÜSÜ VƏ FƏXRİ PREZİDENTİ LAYNUS KARL POLİNQİN TƏRCÜMEYİ –HALI

2001-ci ilin fevral ayında XX əsrin ən görkəmli alimlərindən biri olan Laynus Karl Polinqin anadan olmasının 100 ili tamam oldu. Onun adı bəşəriyyət tarixində məşhur olan 20 alimin sırasına daxil olmuşdur. O, iki dəfə Nobel mükafatına layiq görülmüşdür: biri kimya sahəsində, digəri isə nüvə silahı sınaqlarının qadağan olunmasına görə.

L. Polinq 1901-ci il fevral ayının 28-də ABŞ-ın Oreqon ştatının Portlend şəhərində anadan olmuşdur. Uşaqlıqda oğlunun qeyri-adi istedada malik olduğunu hiss edən atası German Polinq Portlendin "Orejonian" qəzetinə müraciət edərək, oğlunun hansı kitabları oxuması barədə ona

məsləhət verməyi xahiş edir. O yazırdı - İncili və Darvinin "Növlərin mənşəyi" kitablarını təklif etməyin, - bu kitabları artıq o oxumuşdur.

Gənc yaşından atasını itirən Laynusun ehtiyac içində böyüməsi, heç də onun biliklərə olan marağına təsir göstərmir. 1916-cı ildə o məktəbi tərk edir. Məktəbin rəhbərliyi tələb edirdi ki, məktəblilər vətəndaşlıq hüquqlarına həsr olunmuş dərslərdə mütləq iştirak etməlidirlər. Lakin Laynus hesab edirdi ki, bütün bunları o özü müstəqil öyrənə bilər. 1917-ci ildə Laynus Oreqon kənd təsərrüfatı kollecinə daxil olur, lakin aldığı təqaüd onun ehtiyaclarını ödəmədiyinə görə kollecin 2-ci kursundan başlayaraq, eyni zamanda işləməyə başlayır. O ayda 100 saat işləməli olurdu: odun yarmaq, ət doğramaq, mətbəxdə işləmək. Onun hər saatına 25 sent pul verirdilər. Laynus heç bir işdən çəkinmirdi, hətta evlərə süd daşıyır, kinomexanik vəzifəsində işləyir, sallaqxanada işləyir və küçələrə asfalt döşəyirdi. Qazandığı pulun çox hissəsini iki bacısını saxlayan xəstə anasına göndərirdi. Belə gərgin həyat tərzi Polinqə vaxtın qədrini bilməyi öyrədirdi.

Polinqin elmi nailiyyətləri o qədər böyük idi ki, 1919-cu ildə ona kimya fakültəsində asissent-müəllim vəzifəsini təklif etdilər. Elə burada o gələcək xanımı Ava Millerlə tanış olur və həmin ili o kimya texnologiyası üzrə bakalavr dərəcəsini alaraq, kollecdə təhsilini başa vurur.

Laynus təhsilini davam etdirmək üçün bir sıra universitetlərə (Harvard, Berklidəki Kaliforniya, Pasadentdəki Kaltex) müraciət edir. O Kaltexi seçir. Kaltexdə onun rəhbəri rentgen analizi mütəxəssisi R.Dikinson olur. Laynus burada müxtəlif mineralların quruluşunu öyrənməklə məşğul olur. 1923-cü ildə Amerikanın kimya cəmiyyətinin buraxdığı jurnalda onun molibdenin quruluşuna həsr edilmiş ilk məqaləsi çap olunur. Həmin ilin yazında Laynus Ava ilə ailə həyatı qurur.

Özünün ilk elmi işində istifadə etdiyi metoddan sonralar o digər elmi problemlərin həllində də istifadə edirdi. O tədqiq olunan obyektin quruluşunu öyrənir, sonra onu mövcud məlumatlara əsasən dəyişir, sonra difraksiya mənzərəsini hesablayır və təcrübə ilə müqayisə edirdi. 1925-ci ildə Polinqin oğlu balaca Karl dünyaya gəlir. Elə həmin ilin iyun ayında Polinq " Kristalların quruluşunun rentgen şüaları ilə təyini mövzusunda dissertasiya müdafiə edir.

1926-cı ildə Polinq Avropada təhsilini davam etdirmək məqsədi ilə Münhen universitetindəki məşhur fizik Zommerfeldin yanına gedir. Qısa bir müddətdə o özünün ən yaxşı elmi işlərindən olan "Çoxelektronlu atom və ionların fiziki xassələrinin nəzəri təsviri, refraksiya, dinamik nüfuzluq və həcmi genişlənmə" məqaləsini çap etdirir. 1927-ci ildə Polinq Kaliforniyaya qayıdır və asissent vəzifəsində çalışır. O mürəkkəb kristalların quruluşunu təyin etmək üçün 6 mühüm qayda irəli sürür.

Polinq həm gərgin elmi iş aparır, həm də tələbələrə mühazirələr oxuyurdu. O çox gözəl mühazirə oxuyurdu, xüsusilə laboratoriya dərslərində qeyri-adi təcrübələr nümayiş etdirirdi.

1930-cu ildə Polinq yenidən Zommerfeldin yanına qayıdır və burada o özünün ən yaxşı əsərlərindən biri olan "Kimyəvi rabitələrin təbiəti" məqaləsini dərc etdirir. Bundan sonra o ilk dəfə olaraq Lenqmür mükafatına layiq görülür.

Polinq Kaltexdə professor vəzifəsini tutur. Polinq 1932-ci ildə seminarda A.Eynşteynlə tanış olur. 1933-cü ildə isə 32 yaşında Amerikanın MEA üzv qəbul edilir. Akademiyanın tarixində Polinq onun ən gənc üzvü olur.

Artıq Polinq kimyəvi rabitələrin fundamental probleminin böyük bir hissəsini hazırlamışdı. Eyni zamanda o, molekulyar biologiya ilə də maraqlanırdı. 1934-cü ildə Polinq hemoqlobinin quruluşunu öyrənməyə başlayır. Arterial qanın maqnit tərəfindən itələnməsi, venoz qanın isə cəzb olunması onu çox maraqlandırır. O bunun səbəbini hemoqlobinin oksigenlə birləşməsində görür. 1939-cu ildə Polinqin ən məşhur kitabı olan "Molekul və kristalların kimyəvi əlaqələri və quruluşu" kitabı çap olunur. Bu kitab 20-ci əsrin axırlarında ən çox oxunan elmi kitab idi.

İkinci dünya müharibəsi ərəfəsində Polinq partlayıcı maddələr, raketlər üçün yanacaq hazırlayır və həmçinin tibb sahəsində mühüm işlər aparır.

1942-ci ildə Polinq, Kempbell və Presman süni antitel aldıqları barədə məlumat verirlər. 1945-ci ildə Polinq Kempellə birlikdə plazma-oksipolijelatinin əvəzedicisini tapırlar. Müharibədən sonra Polinq ilk dəfə olaraq müharibə əleyhinə çıxış edir. A Eynşteynin təklifi ilə o atom sahəsində çalışan alimlərin fövqəladə komitələrinin yaranmasında yaxından iştirak edir. Onu ən çox atom bombasının istifadəsi zamanı əhalinin radiasiyaya məruz qalması narahat edirdi.

1947-ci ildə Polinqin " Ümumi kimya " kitabı ABŞ kolleclərində kimya fənninin tədrisini kökündən dəyişdi. 1948-ci ildə o polipeptidin spiral quruluşunu təyin edir. Demək olar ki, cəmisi bir neçə saat ərzində kağız üzərində alfa spiralı kəşf edir.

1949-cu ildə Polinq Amerika Kimya Cəmiyyətinin prezidenti vəzifəsinə seçilir. Eyni zamanda o insan hüquqlarının qorunması və müharibə əleyhinə mübarizəsini davam etdirir. 1948-ci ildə Ameriaknın prezidenti Trümen ona "Kristalların quruluşu , kimyəvi rabitələrin təbiəti və sülh uğrunda göstərdiyi səylərə görə " prezidentin xüsusi medalını təqdim edir.

Polinq alfa-spiral nəzəriyyəsini müxtəlif zülalların quruluşuna tətbiq etməyə müvəffəq olur. 1954-cü ilin noyabr ayında Kornell universitetində hemoqlobin haqqında mühazirə oxuyarkən onu telefona çağırıb kimya sahəsində Nobel mükafatına layiq görüldüyünü xəbər verirlər. Polinq ailəsi ilə birlikdə Stohkolma gəlir və kral IV Qustav Adolf şəxsən özü ona bu yüksək mükafatı təqdim edir.

1948-ci ilədək Polinq DNK-nın quruluşunu öyrənməklə məşğul olur. O vaxtlar DNK-nın keyfiyyətli rentgenoqramması yox idi. Ancaq 1952-ci ildə R. Franklin DNK-nın dəqiq rentgenoqrammasını konfrans iştirakçılarına təqdim etdi. Həmin konfransda Polinq iştirak etmirdi. Elə bu şəkillər əsasında Uotson və Kris DNK molekulunun quruluşunu verməyə müvəffəq olurlar. «İkiqat spiral» kitabında Uotson yazırdı: «Mən və Kris çox ehtiyat edirdik ki, Polinq bu şəkilləri görər və bizdən qabaq DNK molekulunun ikiqat spiral quruluşuna malik olmasını elan edər. Xoşbəxtlikdən Polinq bu şəkilləri görə bilmədi, ona görə də onun DNK molekuluna verdiyi quruluş bir qat spiraldan ibarət idi». DNK-nın ikiqat spiral quruluşuna aid məqaləni çap etdirdikdən sonra Uotson və Krik sərbəst nəfəs aldılar, artıq heç kim onlarla rəqabət apara bilməzdi.

Polinqin siyası aktivliyi get-gedə artırdı. O 15 yanvar 1958-ci ildə dünyanın müxtəlif ölkələrində 11021 alimin nüvə silahı sınaqlarının dayandırılması barədə imzaladığı bəyənnaməni BMT-nin baş katibi Daq Hammerskoyla xanımı Ava ilə birlikdə təqdim edir. Eyni zamanda Polinq və Amerikanın 17 digər alimi ABŞ-ın müdafiə nazirini və «Atom enerjisi» komissiyasının sədrini nüvə silahını sınaqdan keçirməyə icazə verdikləri üçün məhkəməyə verir. Polinqin «Müharibəyə yox» kitabı çapdan çıxır. O bir ildə nüvə silahı sınaqlarının gələcək nəsillərin genetikasına və somatikasına verəcəyi mənfi təsirləri çap etdirdiyi məqalədə ətraflı şərh edir.

1962-ci il aprelin 24-də ABŞ prezidenti Kennedi atmosferdə nüvə silahı sınaqlarının davam etdirilməsi barədə sərəncam verdikdə Polinq ona teleqram göndərir: « Siz istəyirsinizmi, sizin adınız tarixə ən şərəfsiz və bəşəriyyətin düşməni olan bir adam kimi daxil olsun?» Bu teleqram Ağ evdə böyük qalmaqala səbəb olur. Ancaq buna baxmayaraq Kennedi onu Ağ evdə Nobel mükafatları laureatlarının şərəfinə verilən ziyafətə dəvət edir. Ziyafət günü aprelin 28-də Laynus və Ava Polinqlər bir neçə yüz sülh uğrunda mübarizlər ilə birlikdə Ağ evin qarşısında nümayişdə iştirak edir və sonra xanımı ilə birlikdə Ağ evdəki qəbula gedirlər. Həmin axşam Polinq hətta prezidentin xanımı Jaklin Fransua ilə də rəqs edir.

10 oktyabr 1962-ci ildə, nüvə silahının qismən qadağan edilməsi barədə müqavilə təsdiq olduğu gün, Laynus Polinqə sülh üzrə Nobel mükafatı verilir. 1965-ci ildə L.Polinq, A.A.Şveytser, Martin Lüter Kinq və daha 5 nəfər Nobel mükafatı laureatları dünyanın siyasi xadimlərinə müraciət edərək, Vyetnam müharibəsinin dayandırılması və məsələnin sülh yolu ilə həll edilməsi üçün bütün səyləri birləşdirməyə çağırırlar.

Polinqi sağlamlığın həyat tərzindən asılılığı çox maraqlandırırdı. O 1970-ci ildə «Evolyusiya və C vitamininə tələb» və «Vitamin C və soyuq-dəymə» kitabını çap etdirdi.

Polinqin şöhrəti get-gedə artırdı. O yeni-yeni məqalələr, kitablar yazır, köhnə kitablarını yenidən nəşr etdirirdi. Polinq dünyanın bir çox ölkələrinin mükafatları ilə təltif olunurdu. 1977-ci ildə Oreqon şəhərinin qubernatorunun əmrinə əsasən 1 iyun «Laynus Polinq günü» adlanır. Həyatının sonuna qədər Polinq gərgin əməklə məşğul olur. L.Polinq 1994-cü il avqust ayının 19-da vəfat edir. Bütün həyatı boyu o nəinki müxtəlif elm sahələri ilə məşğul olur və eyni zamanda dünyanın ədalətli qurulması üçün yorulmadan mübarizə aparır. O Amerikanın və beynəlxalq aləmin ən yüksək mükafatlarını almışdır. Ondan soruşanda ki, o nəsillərin yaddaşında necə qalmaq istəyir, o cavab verir: « Bu çox çətin sualdır, buna cavab vermək mənə çətindir. Yəqin ki, məni vitamin C-nin ixtiraçısı kimi xatırlayacaqlar. Əlbəttə, mən özüm haqqında belə düşünmürəm. Sadəcə Stounun və Sent-Derdinin dediklərini təkrar edirəm».

Qeyd etmək lazımdır ki, Nobel mükafatı 1901-ci ildən verilir. İki dəfə bu mükafatı cəmi 4 nəfər almışdır: Mariya Skladovskaya Küri – fizika (1903) və sülh uğrunda (1911), Laynus Polinq – kimya (1954) və sülh uğrunda (1962), Con Bardin – fizika (1956, 1972), Fredrik Senger – kimya (1958, 1980). Ancaq Polinq yeganə şəxsdir ki, iki dəfə bu mükafata, başqa alimlərlə birlikdə deyil, təkcə layiq görülüb.

BIOGRAPHY OF THE FOUNDER AND HONORARY PRESIDENT OF THE INTERNATIONAL COUNCIL FOR SCIENTIFIC DEVELOPMENT – INTERNATIONAL ACADEMY OF SCIENCE (ICSD/IAS) LINUS KARL PAULING

The 100th anniversary of the most famous scientists of the XX century Linus Karl Pauling was in February 2001. His name entered to the list of 20 outstanding scientists of the world. He was twice awarded with the Nobel Prize. The first one was in the sphere of chemistry and the second one was for his prohibition of nuclear weapon tests.

Linus Pauling was born in the 28th of February 1901 in Portland, State Oregon, the USA. In his childhood, his father German Pauling realized that his son had unusual talent and went to "Orejonian" newspaper in Portland asking for some advice about books which his son could read. He wrote – do not offer the Gospels and the "Origin of species" by Darwin – he has already read them.

After his father had died Linus was growing up poorly, but it didn't influence badly on his interests to knowledge. He left school in 1916. Direction of the school demanded the attendance of pupils at classes devoted to civil rights. But Linus considered that he could learn this by himself. In 1917 Linus went to Oregon Agricultural College. But the scholarship, which he received, was very little and he began to work when he was in his second year. He had to work 100 hours a month: to chop firewood, to cut grass, to work in kitchen. He got 25 cents per an hour. Linus didn't resign any work; he even carried milk to houses, worked as a projectionist, worked for slaughterhouse and he even asphalted streets. He sent the most part of earned amount to his sick mother who looked after his two sisters. Such strained way of living taught Poling to value time.

Pauling's scientific progress was so great that in 1919 he was offered a position of a teacher-assistant at the department of chemistry. He met his future wife Ava Miller there and the same year he got bachelor's degree on chemical technology and completed his studies.

Linus went to several universities (Harvard, California in Berkley, Kaltex in Pasadent) for continuation of his education. He chose Kaltex. At Kaltex his leader was the specialist of X-ray analysis R. Dickinson. Linus was engaged in studying the structure of different minerals. In 1923 there was his first article devoted to the structure of molybdenum, published in a journal, which was produced by the American Chemistry Society. In spring of that year Linus got married with Ava.

For solving other scientific problems he used the method which he had used in his first scientific work. He studied the structure of researched object, changed it on the base of available information, then he computed its diffraction view and compared with the experiment. Pauling's son little Karl was born in 1925. And in June of the same year Pauling defended the thesis named "Determination of the structure of crystal by X-rays".

In 1926 Pauling went to see the famous physician Zommerfeld at the University in Munich in order to continue his education in Europe. In short time he published one of his best scientific articles "Theoretical description of physical properties of multielectrone atoms and ions, refraction, dynamic consequence and volume expansion". In 1927 Pauling went back to California and began to work in the position of assistant. He put forward 6 important rules for determination of the structure of compound crystals.

Pauling worked hard and the same time he gave lectures to students. His lectures were very interesting, especially he demonstrated unusual experiments at the laboratory lessons.

In 1930 Pauling went back to Zommerfeld and published the article "Nature of chemical connections which is one of his best scientific works. After this he was awarded with the Lengmur Premium for the first time.

In Kaltex Pauling filled the position of professor. Pauling met Einstein at the seminar in 1932. And in 1933 at the age of 32 he became a member of the American NAS. In the history of the Academy Pauling was the youngest member of this Academy.

Pauling had already prepared the most part of the fundamental problem of chemical connections. He was also interested in the molecular biology. In 1934 Pauling began to study the structure of hemoglobin. The fact, that arterial blood was pushed and venous blood was pulled by magnet, was very interesting to him. In his opinion the reason of this was the combination of hemoglobin and oxygen.

Pauling's most popular book "Chemical Connections and Structures of Molecules and Crystals" were published in 1939. At the end of the XX century it was the most popular-scientific book.

During the World War II Pauling was preparing the explosive materials, fuel for rockets and a lot of important things for medicine.

In 1942 Pauling, Campbell and Presman gave the information that they had got artificial antibody. In 1945 Pauling and Campbell found the substitute of plasma-oxy polygelatine. After the war Pauling first spoke in public against war. By the advice of Einstein, he took part closely in the creation of the extraordinary committee of scientists working in the atomic field. He was worried most of all about the people who can be exposed to radiation during using the atomic bomb.

In 1947 Pauling's book "General Chemistry" changed completely teaching the subject of chemistry in colleges of the USA. He defined the spiral structure of polypeptide in 1948. He invented the alpha spiral on a paper approximately for several hours.

In 1949 Pauling was elected a president of the American Chemistry Society. At the same time he continued the struggle for protection of human rights and against war. In 1948 the President of America Truman decorated him with the special medal of president for his "efforts making for peace, nature of chemical connections and structures of crystals".

Pauling could use the theory of alpha-spiral in the structure of different proteins. In November of 1954, while he was giving the lecture about hemoglobin in Kornell University, he was called to the telephone in order to be informed that he had been awarded with the Nobel Prize in the sphere of chemistry. Pauling went to Stockholm with his family and King Gustav Adolph IV himself presented this high reward to him.

Till 1948 Pauling was engaged in studying the structure of DNA. There was no qualitative X-ray photograph of DNK. Only in 1952 R. Franklin produced the exact X-ray photograph of DNA to the conference participants. Pauling did not take part in that conference. On the base of this photos Watson and Kris were able to give the structure of DNA molecule. Watson wrote in the book "Double spiral":"Kris and me feared that Pauling could see these photos and declared before us about the double spiral structure of DNA molecule. Fortunately Pauling couldn't see these photos, so the structure which he defined for DNA molecule, consisted of single spiral". After publishing the article about the double spiral structure of DNA, Watson and Kris calmed down, there was nobody who could compete with them.

Pauling's political activity was increasing. On January 15, 1958, he along with his wife Ava produced the declaration about stopping the nuclear weapon tests, which was signed by 11021 scientists from different countries to the Secretary General of the UNO Dug Hammerskoil. At the same time Pauling and other 17 American scientists brought an action against the Minister of Defence of the USA and the Chairman of the Commission on "Atomic Energy" for their permission to test nuclear weapon. Pauling's book "No War" had been published. In his article he explained clearly about bad influence of nuclear weapon tests, keeping on during a year, on the genetics of future generations.

On April 24, 1962, when the President of the USA Kennedy ordered to continue the nuclear weapon tests in atmosphere, Pauling sent a telegram to him: "Do you want you to go down in history as the most ignominious man and the bitterest enemy of the society? This telegram gave rise to cause a big scandal in the White House. But in spite of this Kennedy invited him to take part in banquet in the White House devoted to the Nobel Prize laureates. On the day of banquet, on April 28, Linus and Ava Poling along with a hundred of fighters for peace congratulated the demonstrators in front of the White House and went to the reception. That evening Pauling even danced with President's wife Jaclyn Fransua.

On October 10, 1962, on the day when the Agreement about partly prohibition of nuclear weapon came into effect, Linus Pauling was awarded with the Nobel Prize for his peaceful activity. In 1965 Pauling, A.A. Shveitser, Martin Luter King and other 5 laureates of the Nobel Prize appealed to political figures of the world and called to join all efforts in order to stop the war in Vietnam and to find the peaceful settlement of this problem.

The fact that state of the health depends on life activity seemed to be very interesting to Pauling. In 1970 he published his books "Evolution and necessity of vitamin C" and "Vitamin C and cold".

Pauling was getting more and more famous. He continued to write new articles and books, to retype his old books. Pauling was awarded with many rewards of different countries. By the order of the governor of Oregon City, June 1 is called as "Linus Pauling Day". Pauling worked hard till the end of his life. L. Pauling died on the 19th of August in 1994. During all his life L. Pauling not only worked in different scientific fields, but also fought tirelessly for building the fair world.

He got the highest rewards of America and the international world. When he was asked how he wanted to stay in generations' memory, he answered: "It is very difficult question, it is difficult for me to answer it. Maybe they will remember me as the inventor of the vitamin C. Of course I don't think so about myself. I just repeat the words of Stone and Sent-Derdin".

It should be noticed that the Nobel Prize has been awarded since 1901. Only 4 persons were awarded with this prize twice: Maria Skladovskaya Kury – for physics (1903) and peace (1911), Linus Pauling – for chemistry (1954) and peace (1962), John Barden – for physics (1956,1972), Frederic Senger – for chemistry (1958, 1980). But L. Pauling was the only man, who was awarded with this prize alone, not along with the other scientists.

EİBŞ/BEA AB TƏSİSÇİLƏRİNƏ AVROPA ŞURASININ SABİQ BAŞ KATİBİ, BEA FƏXRİ PREZİDENTİ CORC KAN-AKKERMANIN MÜRACİƏTİ (01. 11. 2001)

Hörmətli təsisçilər!

Bu bölmənin yaradılmasının təşəbbüskarları!

EİBŞ/BEA Azərbaycan Bölməsinin təsis mərasiminin iştirakçılarına səmimi salamımı göndərməkdən böyük şərəf və məmnunluq duyuram. Çox təəssüflənirəm ki, belə unudulmaz tədbirə dəvətinizi şəxsən qəbul edib gələ bilmədim. Ona görə də, Beynəlxalq Elmlər Akademiyasının prezidenti, professor Valter Kofler mənim salamımı sizə yetirir.

EİBŞ/BEA fəxri prezidenti və Avropa Şurasının sabiq baş katibi kimi, mən Avropa ailəsində Azərbaycanı xüsusi maraqla salamlayır və bunu vurğulamağa şadam ki, Avropa Şurası 2001-ci ildə ölkənizi mehribanlıqla Avropa ölkələri ailəsinə qəbul edə bilmişdir. Azərbaycan Avropanın cənub–şərqində yerləşir, lakin Avropanın layiqincə qiymətləndirilməmiş, amma çox mühüm mədəni regionudur. Ona görə də, hesab edirik ki, Azərbaycan Bölməsi Avropada ehtiyacların və dəyərlərin müxtəlifliyini daha yaxşı başa düşmək üçün yeni aspektlər və yeni ideyalar irəli sürəcəkdir.

Biz bilirik ki, Avropada problemlər çoxdur. Lakin biz əməkdaşlıq etsək və mədəni müxtəlifliyin müsbət dəyər olduğunu qəbul etsək, onda bu problemlər həll oluna bilər. Müxtəlif ölkələrin bir çox mötəbər elmi təşkilatlarının Azərbaycan Bölməsi və dünyanın hər yerində EİBŞ/BEA ilə əməkdaşlıq etmək istəməsi faktı ümid doğurur.

Sizə ən xoş arzularımı bildirirəm.

APPEAL OF THE FORMER GENERAL SECRETARY OF THE COUNCIL OF EUROPE, HONORARY PRESIDENT OF IAS GEORGE KAHN-ACKERMANN TO THE FOUNDING MEMBERS OF AS ICSD/IAS (01. 11. 2001)

Dear Founding Committee!

Special greetings to the initiators of this Section!

It is a great pleasure and honour for me to send my cordial greeting to the participants of the Founding Ceremony of the Azerbaijan Section of the International Council for Scientific Development/International Academy of Sciences. I am so sorry that I could not follow your invitation to this commemorable event personally; it is for this reason Prof. Kofler will bring my greetings to you.

As Honorary President of ICSD/IAS and former Secretary General of the Council of Europe it is a special pleasure to welcome Azerbaijan into the family of ICSD/IAS; as I am happy to see that in 2001 the Council of Europe could welcome your country into the family of the Countries of Europe. Azerbaijan is situated in the extreme Southeast of Europe and represents an often underestimated but very relevant cultural European region. We can therefore expect the Azerbaijan Section to bring in new aspects and new ideas for a better understand of the diversity of needs and values within Europe.

We know: there are a lot of problems in Europe. But they can be solved if we co-operate and accept that cultural diversity is a positive value. The fact that so many relevant scientific organizations of this country are willing to cooperate within Azerbaijan Section and within ICSD/IAS worldwide gives hope. I wish you the best for the future!

EİBŞ/BEA AB TƏSİS YIĞINCAĞINDA BEA PREZİDENTİ, DR., PROF., BEA AKADEMİKİ VALTER KOFLERİN TƏNTƏNƏLİ ÇIXIŞI (03. 11. 2001)

EİBŞ/BEA-nın prezidenti kimi BEA-nın adından Sizi salamlamaq mənim üçün böyük şərəf və sevincdir. EİBŞ və onun mərkəzi orqanı olan BEA Nobel mükafatı laureatı L.Polinqin aktiv dəstəyi və təşəbbüsü ilə Münhen şəhərində yaradılmışdır. L.Polinq BEA-nın ilk Fəxri prezidenti olmuşdur. Ona görə də, Siz haqlı olaraq bu tədbiri onun 100 illik yubileyinə həsr etmisiniz. Kimya sahəsində və sülh uğrunda Nobel mükafatları laureatı kimi L.Polinq BEA-nın məqsədlərini daha yaxşı təsəvvür edirdi: elmin imkanlarından sülh ideyalarının yayılması üçün istifadə etmək, dözümlülük, azadlıq və dözümlülüyün müxtəlif idealogiyalar arasında yayılmasına kömək etmək. Bunun üçün alim, siyasətçi, incəsənət xadimi və iqtisadiyyatın məsul təmsilçilərindən və s. ibarət dünyanın bütün ziyalı insanların iştirakı tələb olunur.

Məhz buna görə də qəlbən BEA-nan bağlı olan insanlar EİBŞ-nın üzvləri seçilirlər. Bu müddət ərzində müxtəlif ölkələrdən 100-dən artıq Nobel mükafatı laureatları, müxtəlif mədəni və dini təşkilatlar, həmçinin məşhur siyasətçilər, incəsənət xadimləri, təsərrüfat təmsilçiləri bizim bu ideyaların daşıyıcıları olmuşlar. Bu qrupun təmsilçisi kimi mən, Sizə Avropa Şurasının sabiq baş katibi cənab C.Kann-Akkermanın adından təbriklərimi çatdırıram. Mən, həmçinin Sizə onun Bölmənizə hamilik etməyə razı olması xəbərini çatdırmaq istəyirəm. EİBŞ/BEA-nın müstəqil bölmələri Almaniyada, Fransada, Rusiyada, Yaponiyada və s. fəaliyyət göstərir. EİBŞ/BEA-nın strukturunda belə qeyri-hökumət təşkilatı öz nizamnaməsi əsasında passiv və aktiv seçici hüququ ilə tərkibinə digər bölmələri üzv qəbul edə bilər və beləliklə, birliklər haqqında qanuna uyğun olaraq EİBŞ/BEA-nı beynəlxalq miqyasda təmsil edə bilər.

Mən ümid edirəm ki, Sizin nümayəndələr prof. E.Xəlilov və prof. A.Məmmədov vasitəsilə beynəlxalq normalara uyğun olaraq Azərbaycan Bölməsinin yaradılması üçün lazım olan bütün hüquqi sənədləri göndərmişəm. Sizə bildirməyə çox şadam ki, EİBŞ/BEA-nın Rəyasət Heyəti Azərbaycan qanunlarına müvafiq olaraq Bölmənin təsis prosesi yekunlaşdıqdan sonra Azərbaycan Bölməsinin BEA-ya üzv qəbul olunacağı və Sizin nümayəndənizin Rəyasət Heyətinə daxil ediləcəyi haqqında qərar qəbul etmişdir. Azərbaycanda EİBŞ/BEA-nın müstəqil bölməsinin yaradılması qərarı ilə Siz cəsarətlə, ənənəvi olmayan addımlar atmısınız.

Belə ki, Sizin ölkənin sadə insanlarına maksimum fayda verən ideyalarla, ölkənizin və dünyanın alimləri arasında elmi mübadilələrə imkan yaratmaq, doğrudan da böyük cəsarət tələb edir. Bütün bunları şəxsi iqtisadi marağı olmadan həyata keçirmək ikiqat təqdirəlayiqdir. Biz o düşüncə tərzinə malik insanların birliyiyik ki, onlar intellektə və kooperasiyaya inanırlar. Bu mövqedən çıxış edərək, biz mümkün qədər «ailə atmosferi» yaratmağa can atırıq. Məhz bu şərait, yəni kommersiya marağı olmadan ideyaların reallaşdırılması, alimlərin və elmi idarələrin qarşılıqlı yardıma hazır olmasına imkan verir. Bölmənin təsisçilərinin təqdim olunmuş siyahısı göstərir ki, Siz bunu ideal şəkildə həyata keçirə bilərsiniz. Məndə belə təəssürat yaranmışdır ki, Siz praktiki olaraq mühüm elmi təşkilatları əməkdaşlığa cəlb edə bilmisiniz. İlk dəfə olaraq könüllülük əsasında ideyalar mübadiləsi sahəsində ümumi geniş platformanın yaradılmasını layiqincə qiymətləndirmək çətindir. Bu, məsul şəxslərin yetkinliyini və minilliklər ərzində inkişaf etmiş mədəniyyətin ifadəsini bir daha sübut edir. Azərbaycan elmi tarixində bu addım ölkənizin siyasi nüfuz sahibləri tərəfindən qiymətləndirilməyə layiqdir.

Biz bilirik ki, çətin bir dövrdə yaşayırıq. Bu dövr Sizin ölkəniz üçün iqtisadi cəhətdən inkişaf etmiş digər ölkələrə nisbətən daha çətindir. Maliyyə mənbələrinin olmaması yaradıcılıq və ixtiraçılıq imkanlarından daha aktiv istifadə edilməsini zəruri edir. Bu sahədə siz əvəzedilməzsiniz. Ona görə də, mən Sizin ölkənin gələcəyinə inanıram. Sizə ölkənizin sadə insanlarının rifahı, regionda sülh və dözümlülük naminə gələcək işlərinizdə böyük uğurlar arzulayıram. EİBŞ/BEA Azərbaycan Bölməsinin faliyyətində bizim köməyə arxayın ola bilərsiniz.

Bir daha yüksək qonaqpərvərliyinizə görə Sizə təşəkkür edir və gələcək birgə işlərimizdə uğurlar arzulayıram.

CEREMONIAL SPEECH OF THE PRESIDENT OF IAS, DR., PROF., ACADEMICIAN OF IAS WALTER KOFLER AT THE CONSTITUENT ASSEMBLY OF AS ICSD/IAS (03. 11. 2001)

Being the president of ISCD/IAS it is high honour and joy for me to give the best regards from our association of persons of like mind. International Council for Scientific Development with the business of its heart – International Academy of Science – established according to Munich initiation that was actively supported by the laureate of Nobel Prize Linus Pauling who became its first honorary president. Therefore, by right, you devote this worthy meeting to its 100th anniversary. Being the laureate of Nobel Prize in the sphere of chemistry and for struggle for peace, he, as nobody else represents the purposes of ISCD/IAS: to use the opportunities of science for the spread of the ideas of peace, tolerance and freedom, and to favour the spread of this tolerance among different ideologies. For this purpose are needed the great heads of this world, either scientists, politicians, men of art or responsible representatives of economy. So, the members of International Council for Scientific Development become those men the business of hearts of whose are the International Academy of Science.

Bearers of our idea became for this time more than 100 Nobel Prize winners from all countries, different cultural circles and religions and also famous politicians, art workers, representatives of economy. As a representative of this group I would like to congratulate You on behalf of ex-Secretary General of the Council of Europe Mr. George Kahn – Ackermann. I can also inform you about his readiness as honorary president to patronize Your section. Independent unions of ICSD/IAS are including in German, France, Russia, Japan. Such private organization in the structure of ICSD/IAS, which on the basis of its rule can adopt other sections as the members with eligibility and suffrage and thus on the basis of the low of joining in international frame to present ICSD/IAS.

I hope that by the way of your representatives Prof. Elchin Khalilov and Prof. Arif Mammadov I delivered all necessary documents for establishing of the section according to international low. I am glad to inform You that the Presidium of ICSD/IAS made a resolve to enter Your section as a member and to co-opt Your speaker in Presidium after You will complete legalization in concordance with the right of Azerbaijan. Along with the decision of an establishing of independent section of ICSD/IAS in Azerbaijan You displayed courage to follow the idea which in not always convenient for its. The courage – to exchange the ideas, which are of maximum immediate use for common people of Your Homeland, with different scientists of Your country and other countries of the world. The courage – to realize them without any economic profit. We are the union of intellectuals! We are these persons which believe in intellectual abilities and readiness for cooperation. On the assumption of this position we strive for creating the «domestic atmosphere» as far as possible. Indeed this circumstance, that it is a question of realization of ideas and not of commercial advantage, this circumstance makes easier not frequent mutual openness and readiness for mutual aid between scientists and scientific institutions.

Review of the list of the founders of your Section shows that you can fulfil it ideally. I have an impression that we have practically managed to attract the main scientific organizations for cooperation. The fact that it has been managed to create voluntarily all-embracing general platform on changing ideas should be appreciated at its true value. It proves the ripeness of responsible people and I think it is an expression of cultural regularity, growing up during a thousand years. This historical step in the scientific history of Azerbaijan deserves recognition of high prestige politicians of the country. Just

We all know that we are living in difficult period. This period is more difficult for your country than for countries that have better economics. Lack of the financial possibilities compels to use actively creativity and ingenuity. And you have got all these features. So I don't fear for the future of this country. All the best thing that I can imagine I wish you in your future work for the welfare of common people in your country, in the name of peace and tolerance in your region. If ICSD/IAS may be useful, you can rely on us.

I would like to thank you again for your warm hospitality and I wish good luck in your and our efforts.

EİBŞ/BEA AB TƏSİSÇİLƏRİNƏ RUSİYA TİBB ELMLƏR AKADEMİYASININ AKADEMİK KATİBİ, BEA RUSİYA BÖLMƏSİNİN PREZİDENTİ, D-R, PROF., RTEA VƏ BEA AKADEMİKİ SUDAKOV KONSTANTİN VİKTOROVİÇİN MÜRACİƏTİ (03. 11. 2001)

Hörmətli xanımlar, cənablar və həmkarlar!

Beynəlxalq Elmlər Akademiyası Rusiya Bölməsi adından Sizi əlamətdar hadisə- nüfuzlu beynəlxalq təşkilat olan BEA Azərbaycan Bölməsinin yaradılması münasibəti ilə ürəkdən təbrik edirəm. İnanıram ki, BEA AB təşkili və fəaliyyəti ölkənizdə elmi və elmi-tətbiqi tədqiqatların daha da inkişaf etməsinə, beynəlxalq elmi kooperasiyaya, qlobal bəşəri elmi problemlərin hazırlanmasında Azərbaycan alimlərinin və yaradıcı insanlarının iştirakına güclü stimul olacaqdır.

Ümid edirəm ki, BEA çərçivəsində BEA Azərbaycan və Rusiya Bölmələri arasında əməkdaşlıq daha da inkişaf edəcək, möhkəmlənəcək və birgə elmi layihələrdə, konfranslarda, simpoziumlarda öz konkret həllini tapacaqdır.

APPEAL OF THE ACADEMICIAN SECRETARY OF RUSSIAN ACADEMY OF MEDICAL SCIENCE, PRESIDENT OF RUSSIAN SECTIONE OF IAS, DR., PROF., ACADEMICIAN OF RAMS AND IAS KONSTANTIN VIKTOROVICH SUDAKOV TO THE FOUNDING MEMBERS OF AS ICSD/IAS (03. 11. 2001)

Dear ladies and gentlemen, colleagues!

On behalf of the directorate of Russian Section of International Academy of Science heartily congratulate You on memorable event – the establishing in Azerbaijan the Section of the most authoritative international scientific organization! We are sure that organization and working of the Azerbaijan Section of International Academy of Science will be effective stimulus of further development of scientific and scientific-application studies in Your country, international scientific cooperation, participation of Azerbaijan scientists and creative workers in the working of global, common to all mankind scientific problems.

We express a hope that the collaboration between the Russian and Azerbaijan Section of IAS within the International Academy of Science will grow stronger, develop and get concrete realization in joint scientific projects, conferences, symposiums.

EİBŞ/BEA AB TƏSİS YIĞINCAĞINDA AZƏRBAYCAN MEA PREZİDENTİ, DR., PROF., MEA AKADEMİKİ KƏRİMOV MAHMUD KƏRİM OĞLUNUN TƏNTƏNƏLİ ÇIXIŞI (03. 11. 2001)

Hörmətli mərasim iştirakçıları, hörmətli qonaqlar, xanımlar və cənablar!

İcazə verin, MEA Rəyasət Heyəti adından BEA AB təsisi münasibəti ilə Sizi təbrik edim.

Bu gün, elmin müxtəlif sahələrinin intensiv inkişaf etdiyi bir dövrdə, elmin güclü bir məhsuldar qüvvəyə çevrildiyi zaman dünyanın qlobal problemlərinin həlli üçün alimlərin birgə səyi çox mühüm əhəmiyyət kəsb edir. Yüksək texnologiyanın inkişafı müxtəlif sahələrdə işləyən alimlərin səylərini birləşdirməyi və elmi-tədqiqat işlərinin koordinasiya olunmasını tələb edir. Beynəlxalq hüquq əsasında dünya alimlərinin fəaliyyətini əlaqələndirməklə bu məsələlərin həlli yollarını tapmaq olar. Həm tərkibinə, həm də elmi istiqamətlərinə görə BEA çox nüfuzlu bir təşkilatdır. Ona görə də Respublikamızın beynəlxalq elmi təşkilatla sıx əlaqəsi təqdirəlayiqdir.

Hörmətli Prezidentimiz cənab H.Əliyev Azərbaycanda fundamental elmin inkişafına və onun dünya elminə inteqrasiyasına xüsusi diqqət yetirir. BEA AB təsisi Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyinə, dünya Azərbaycanlılarının 1-ci qurultayının keçirilməsinə və böyük alim Polinqin 100 illiyinə təsadüf edir. Hesab edirəm ki, bu təsadüflər simvolik xarakter daşıyır. Əminəm ki, Azərbaycan alimlərinin iştirakı BEA fəaliyyətində əlavə bir impuls yaradacaq. Mən dünya alimlərinin dostluğunu və elmi əlaqələrini alqışlayıram!

CEREMONIAL SPEECH OF THE PRESIDENT OF THE AZERBAIJAN NAS, DR., PROF., ACADEMICIAN OF ANAS KERIMOV MAHMUD KERIM OGLU AT THE CONSTITUENT ASSEMBLY OF AS ICSD/IAS (03. 11. 2001)

